# Vitse-spiker Adil Əliyev Milli Məclisdə vətəndaşları qəbul edib

Aprelin 12-də Milli Məclisin Sədr müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyev Milli Məclisdə əvvəlcədən müəyyən edilmiş qrafikə uyğun olaraq vətəndaşların növbəti qəbulunu keçirib. Vitse-spiker qəbulda iştirak edən şəhid ailələri üzvlərinin və digər vətəndaşların müraciətlərini dinləyib.

Qəbul zamanı vətəndaşları narahat edən məsələlərlə bağlı lazımi tədbirlər görülüb, onların müraciətlərinin bir qismi yerindəcə həll edilib, sosial, humanitar, məişət və digər mövzularla əlaqədar qaldırılan bir sıra məsələlərin araşdırılması üçün aidiyyəti orqanlara sorğular hazırlanıb.

Müraciət edən vətəndaşlara bildirilib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsi, onların rifah halının yaxşılaşdırılması, şəhid ailələrinin və qazilərin sosial problemlərinin həlli daim diqqət mərkəzindədir. Diqqətə çatdırılıb ki, Prezident tərəfindən əhalinin müraciətlərinə yüksək həssaslıqla yanaşılması barədə verilən tapşırıq və tövsiyələrə uyğun olaraq, Milli Məclisin Sədr müavini Adil Əliyevin ünvanına daxil olan bütün növ müraciətlərə yüksək həssaslıqla yanaşılır, mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq müvafiq tədbirlər görülür.

***"Azərbaycan"***

Azərbaycan.- 2023.-13 aprel.- S.3.